# Buraxılış imtahanının ikinci mərhələsi keçirilib

İyunun 9-da Dövlət İmtahan Mərkəzi ölkəmizin hər yerində olduğu kimi Qəbələ rayonunda da ümumtəhsil məktəblərinin IX sinif şagirdləri üçün buraxılış imtahanının ikinci mərhələsini keçirib.

İmtahanda şagirdlərin bilik və bacarıqlarını yoxlamaq məqsədilə tədris dili, riyaziyyat və xarici dil fənləri üzrə ümumilikdə 90 qapalı tipli tapşırıq təqdim edilib.

Qeyd edək ki, doqquzuncu sinif şagirdlərinin buraxılış imtahanlarının ikinci mərhələsinin keçirilməsi üçün respublikamızda ümumilikdə 89 imtahan mərkəzi ayrılıb.

İmtahanda Qəbələ rayonundan 1287 nəfər IX sinif şagirdi iştirak edib.

**"Qəbələ"**

# Kukla teatrı uşaqları sevindirib

Qax Dövlət Kukla Teatrı Ramazan bayramı günlərində Qəbələ rayonunda "Qafqaz Sport" otelində istirahət edən uşaqlara "Cırtdan" və "Qoğal" xalq nağılları əsasında səhnələşdirilmiş iki tamaşa təqdim edib.

Teatrın rejissoru, əməkdar artist Yusif Abdurahmanovun quruluş verdiyi tamaşalarda əsas rolları Afət Yaqubova, Araz Mehrablı, Elnarə Razıyeva və başqaları ifa ediblər.

Tamaşalar uşaqların sürəkli alqışları ilə başa çatıb.

**"Qəbələ"**

# Maarifləndirmə tədbiri

"İnsan hüquqları aylığı" çərçivəsində Dövlət Miqrasiya Xidməti tərəfindən keçirilən "Tədbirlər Planı"na uyğun olaraq Qəbələ şəhərində "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqları" mövzusunda maarifləndirmə tədbiri keçirilib. Tədbirdə rayon icra hakimiyyətinin, idarə, müəssisə və təşkilatların, hüquq-mühafizə orqanlarının nümayəndələri, təhsil işçiləri, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər iştirak edib.

Tədbiri giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova regionlarda miqrasiya sahəsində maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışıb.



Sonra Şəki regional miqrasiya idarəsinin şöbə rəisi Taleh Musayev Dövlət Miqrasiya Xidmətinin fəaliyyəti, xidmətin regional idarələri, saxlama mərkəzləri, sərhəd keçid məntəqələrində xidmət yerləri, vahid miqrasiya məlumat sistemi, elektron sənəd dövriyyəsi, 24 saatlıq rejimdə fəaliyyət göstərən "Çağrı mərkəzi"nin işi barədə ətraflı məlumat verib.

Sonda mövzu ətrafında müzakirələr aparılıb və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**"Qəbələ"**
**Səhrab Umuyev (foto).**

# Peşə bayramını qeyd ediblər



Qəbələdə su təsərrüfatı işçiləri peşə bayramlarını qeyd ediblər.

Prezident İlham Əliyevin 14 may 2014-cü ildə imzaladığı Sərəncamla 5 iyun tarixi ölkəmizdə su təsərrüfatı və meliorasiya işçilərinin peşə bayramı günü elan olunub.

Bu münasibətlə Qəbələ Suvarma Sistemləri İdarəsinin kollektivi ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, ulu öndərin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Bayram tədbirində suvarma sistemləri idarəsinin rəisi Qüdrət Həmidov Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadənin su təsərrüfatı və meliorasiya işçiləri günü münasibətilə kollektivə ünvanladığı təbrik məktubunu oxuyub və kollektivin üzvlərini bayram münasibətilə təbrik edib.

Tədbirdə rayonun qabaqcıl su təsərrüfatı işçilərinə idarənin Fəxri fərmanları təqdim olunub.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Seminarlar təşkil olunub

IDEA İctimai Birliyi, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və




WWF-in Azərbaycan nümayəndəliyinin təşkilatçılığı ilə "Zubraların Azərbaycana reintroduksiyası" proqramı çərçivəsində rayonun Vəndam qəsəbə 1 nömrəli, Bunud, Nohurqışlaq, Məmmədağalı, Tüntül və Yengicə kənd orta məktəblərində seminarlar təşkil olunub.

Seminarlarda nəsli tükənmək təhlükəsi altında olan zubrların Azərbaycanda tarixi, onların ekoloji rolu və qida zəncirində tutduğu mövqe, eləcə də mühafizəsi və bərpası istiqamətində aparılan işlər haqqında mühazirələr oxunub. Vaxtilə ölkəmizdə yaşamış, sonralar nəsli kəsilmiş vəhşi öküz - Qafqaz zubru növündən olan 12 baş heyvanın bu yaxınlarda Fransa və Belçika zooparklarından Azərbaycana gətirildiyi, onlara Şahdağ Milli Parkında xüsusi ərazi yaradıldığı və heyvanların bir müddət bu ərazidə adaptasiya dövrü keçdikdən sonra təbiətə sərbəst buraxılacağı bildirilib. Əraziyə bu il daha 8 baş zubrun gətirilməsinin də nəzərdə tutulduğu qeyd olunub.

Maarifləndirmə tədbirlərində gənc təbiətsevərlər zubrların bərpası istiqamətində aparılan işlərlə xüsusi maraq göstərib, dəstəklərini nümayiş etdiriblər.

**"Qəbələ"**

# İlk uğurlu addımlar

***Qəbələ şəhər 2 nömrəli tam orta məktəbin 1 c sinfində bu günlərdə keçirilən «Əlifba bayramı»nı şagirdlər uzun müddət unutmayacaq. Həmin gün hamı sevinirdi- körpə fidanlar da, onların valideynləri də, müəllimlər də. Körpələr artıq əlifbanı, yazmağı, oxumağı, hesablamağı öyrənmişdilər. Bu gün dərs ili boyu öyrəndiklərini hər kəsin qarşısında nümayiş etdirməliydilər.***

Sinif müəllimi Aytəkin Abudovanın üzündəki həyacan xüsusilə hiss olunurdu. Bir illik zəhmətinin bəhrəsini istədiyi səviyyədə görə biləcəkdimi?

Nəhayət tədbir başlayır. Birincilərin rəngarəng çıxışları zalda oturanların alqışları ilə muşayət olunurdu. Körpələr Vətənə, anaya, dövlət rəmzlərimizə, müəllimə həsr olunmuş şeirləri özlərinə məxsus şirin dillə tədbir iştirakçılarına çatdırırdılar.

Müxtəlif məzmunlu səhnəciklər oyunlar, rəqslər balacaların bayramına xüsusi rəng qatırdı.




Məktəbin direktoru Təranə Səlimova, valideynlər tədbirin hazırlanmasında zəhməti olanlara, xüsusilə sinif müəllimi Aytəkin Abudovaya təşəkkürlərini bildirdilər. Əlifba bayramında şagirdlərin fəallığı göstərdi ki, onlar bir ildə müəllimlərinin səyi sayəsində elmin ilkin cığırlarında uğurla addımlayıblar.

**İradə XƏLİLOVA,**
**məktəbin müəllimi.**

# Bu il Qəbələdə uşaq bərpa mərkəzinin tikintisinə başlanacaq

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, əlilliyi olan və sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya infrastrukturunun təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılır. Bununla yanaşı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bərpa müəssisələri şəbəkəsinin respublikamızın bölgələri üzrə də genişləndirilməsi işlərinə başlanılır. Bu istiqamətdə görüləcək işlər çərçivəsində cari ilin ikinci yarısında Qəbələ rayonunda Uşaq Bərpa Mərkəzinin tikintisi planlaşdırılır.

70 çarpayılıq reabilitasiya müəssisəsində sağlamlıq imkanları məhdud uşaqlar fizioterapevtik prosedurlarla yanaşı, tədris metodikaları əsasında tədris-peşəyönümlü, sosial yanaşma əsaslı reabilitasiya tədbirlərinə də cəlb ediləcəklər.

# İlin sonunadək yekunlaşacaq

Ləki-Qəbələ dəmir yolu xəttinin çəkilməsi üçün torpaq yatağının qurulması ilə bağlı işlər ilin sonunadək yekunlaşacaq.

Hazırda Ləkidən Qəbələ Beynəlxalq Hava Limanına qədər olan ərazidə torpaq yatağının qurulması ilə bağlı işlər tamamlanmaq üzrədir.

Gələn ilin ortalarında tamamlanması nəzərdə tutulan dəmir yolunun çəkilməsindən sonra xətdə "Stadler" şirkətinə məxsus qatarların istifadəsi planlaşdırılır.